Jafarli N.H., Aliyev A.J.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.66-78
UDC: 343.131.5

# The Constitution of the Republic of Azerbaijan as the main source of criminal procedure law

**Abstract**: This article is devoted to the study of the Constitution of the Republic of Azerbaijan as the main source of the criminal procedure law of the Republic of Azerbaijan. As a result of the study, the author comes to the conclusion that the Constitution of the Republic of Azerbaijan, in terms of legal force, being the highest legislative act, is the most important element of the legislative and legal system of the country. The Constitution of the Republic of Azerbaijan, which is the normative base of the criminal procedure law of the Republic of Azerbaijan, contains the basic principles and guarantees of the rights and freedoms of human and citizen, regulates public relations in this area throughout the country, both directly and indirectly, by concretizing the provisions of the Constitution in criminal procedure legislation. Resolutions of the Constitutional Court of the Republic of Azerbaijan guide law enforcement agencies and officials to the correct understanding and application of constitutional norms. Therefore, the decisions of the Constitutional Court must be timely and accurately executed by all state bodies, including the Milli Majlis, as well as officials.

**Keywords**: rights and freedoms of human and citizen; constitutional rights and freedoms; sources of law; sources of criminal procedure law; normative base of criminal procedural law.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Huquq yayin Evi Publ., 2018, 92 p. (in Azerbaijani).

2. Criminal Procedure Code of the Republic of Azerbaijan. Baku, Qanun neshriyyati Publ., 2022, 640 p. (in Azerbaijani).

3. Criminal Procedure Code of the Azerbaijan SSR. Baku, Azerneshr Publ., 1988, 304 p. (in Azerbaijani).

4. Decisions of the Constitutional Court of the Republic of Azerbaijan (1999-2002). Baku, Huquq neshriyyati Publ., 2018, 216 p. (in Azerbaijani).

5. Aliyev A.J. Some aspects of the norm on the right to life declared by the Constitution of the Republic of Azerbaijan // *Polis Akademiyasinin Xabarlari – News of the Police Academy*. – 2019. – No. 3 (23), p. 83-88.

6. Aliyev A.J. *Pravo na zhizn': sravnitel'nyi analiz sootvetstvuyushih norm Konstitutsiy Azerbaijanskoy Respubliki i Rossiyskoy Federatsii* [The right to life: a comparative analysis of the relevant norms of the Constitutions of the Republic of Azerbaijan and the Russian

♦ **Jafarli Nazim Hasan oglu** – Doctor of Law, Professor, Honored Teacher, Head of the Department of State and Constitutional Law of the Institute of Law and Human Rights (Azerbaijan). E-mail: aydin.ali@mail.ru

**Aliyev Aydin Jamil oglu –** PhD in Law, Associate Professor, Senior Researcher of the Institute of Law and Human Rights (Azerbaijan). E-mail: aydin.ali@mail.ru

Federation] // *Sotsial'no-politicheskie nauki – Social Political sciences (RINTs)*. 2020. No 1, p. 28-32.

7. Baglai M.V. *Konstitutsionnoe pravo Rossiyskoy Federatsii*: uchebnik dlya vuzov [Constitutional Law of Russian Federation: Textbook for Universities]. Moscow, Norma Publ., 2007, 784 p.

8. *Nauchno-prakticheskiy kommentariy k Konstitutsii Rossiyskoy Federatsii* [Scientific Practicla Commentary to the Constitution of Russian Federation]. Ed. by V.V. Lazarev. Moscow, Spark Publ., 1997, 599 p.

9. Orlov A.V. *Konstitutsionnye normy, obespechivayushie obvinyaemomu pravo na zaschitu v rossiyskom ugolovnom protsesse*. Dis. kand. yurid. nauk [Constitutional norms providing the accused with the right to defense in the Russian criminal process. PhD in Law Diss]. Saratov, 2004, 254 p.

10. Ebzeev B.S. *Konstitutsiya. Pravovoe gosudarstvo. Konstitutsionnyi sud.* Uchebnoe posobie dlya vuzov [Constitution. Rule-of-Law state. Constitutional Court. Teaching aid for Universities]. Moscow, Zakon i Pravo, YUNITI Publ., 1996, 349 p.

11.Ebzeev B., Radchenko V. *Pryamoe deystvie Konstitutsii RF i konkretizatsiya eye norm* [Direct action of the Constitution of Russian Federation and specification of its norms]. Rossiyskaya yustitsiya-Russian Justice. 1994. No. 7, pp. 7-9.

**Cəfərli N.H., Əliyev A.C.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.66-78**
**UOT: 343.131.5**

## Azərbaycan Respublikasının Konstitusiyası cinayət-prosessual qanunun əsas mənbəyi kimi

**Xülasə**: Məqalə Azərbaycan Respublikası cinayət-prosessual qanununun əsas mənbəyi olan Azərbaycan Respublikası Konstitusiyasının öyrənilməsinə həsr edilmişdir. Aparılmış tədqiqatın nəticəsi olaraq müəllif belə nəticəyə gəlir ki, Azərbaycan Respublikasının Konstitusiyası hüquqi qüvvəsinə görə ali qanunvericilik aktı olmaqla ölkənin qanunvericilik və hüquq sisteminin ən mühüm elementidir. Azərbaycan Respublikasının cinayət-prosessual hüququnun normativ bazası olan Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının əsas prinsip və təminatlarını özündə əks etdirir, Konstitusiyanın müddəalarını cinayət-prosessual qanunvericilikdə konkretləşdirmək yolu ilə bu sahəyə dair ictimai münasibətləri bütün ölkə ərazisində həm bilavasitə, həm də dolayısı ilə tənzimləyir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları hüquqtətbiqetmə orqanlarını və vəzifəli şəxsləri konstitusiya normalarını

♦ **Cəfərli Nazim Həsən oğlu -** hüquq üzrə elmlər doktoru, professor, əməkdar müəllim, Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət və Konstitusiya hüququ" şöbəsinin müdiri (Azərbaycan). E-mail: aydin.ali@mail.ru
**Əliyev Aydın Cəmil oğlu -** hüquq üzrə fəlsəfə doktoru, dosent, Hüquq və İnsan Haqları İnstitutunun böyük elmi işçisi (Azərbaycan). E-mail: aydin.ali@mail.ru

düzgün başa düşməyə və tətbiq etməyə istiqamətləndirir. Odur ki, Konstitusiya Məhkəməsinin qərarları bütün dövlət orqanları, o cümlədən Milli Məclis, eləcə də vəzifəli şəxslər tərəfindən vaxtında və dəqiq icra edilməlidir.

**Açar sözlər:** insan və vətəndaş hüquq və azadlıqları; konstitusiya hüquq və azadlıqları; hüquq mənbələri; cinayət-prosessual hüququn mənbələri; cinayət prosessual hüququnun normativ bazası.

Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikası qanunvericilik sisteminin əsası olaraq dövlətin bütün qanunvericilik aktları sırasında xüsusi yer tutur. Onun müddəaları dövlətimizin və cəmiyyətimizin müasir inkişaf mərhələsinin hüquqi konsepsiyasına dair ən mühüm başlanğıc nöqtələrini ehtiva edir.

Azərbaycan Respublikası Konstitusiyasının müddəalarının mahiyyətinin dərk edilməsi, hər şeydən əvvəl, onun demokratik hüquqi dövlət quruculuğuna yönəldiyini təsdiq etməyə əsas verir. Qeyd olunduğu kimi, belə bir dövlətin fəaliyyəti qanun çərçivəsində, hüququn tələblərinə tabeçilik şəraitində getməli, demokratiyanın konstitusiya əsaslarının həyata keçirilməsini təmin etməlidir [9, s. 42].

Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsilə Konstitusiyanın ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olmasının, eləcə də Azərbaycan Respublikası qanunvericilik sisteminin əsasını təşkil etməsinin bəyan edilməsi yeni yaranmış müstəqil dövlət kimi Azərbaycan Respublikasının qanunvericilik sisteminin hüquqi əsasını qoymuş, onun inkişafının əsas istiqamətlərini, eləcə də qanunlar və digər normativ aktlar sırasında yerini müəyyən etmişdir. Bunun nəticəsi olaraq Azərbaycan Respublikasının qanunvericilik sistemində Konstitusiya başda olmaqla normativ hüquqi aktların dəqiq iyerarxiyası müəyyən edilmiş, ictimai münasibətlərin tənzimlənməsində Azərbaycan Respublikası Konstitusiyasının sahə qanunları və normativ aktlarla qarşılıqlı əlaqəsinin əsas istiqamətləri formalaşmış, Konstitusiya normalarının həyata keçirilmə mexanizmi müəyyən edilmişdir. Bu o deməkdir ki, Azərbaycan Respublikasının Konstitusiyası dövlətin qanunvericilik sisteminin ən yüksək pilləsində duraraq bütün qanunvericiliyin sisteminin hüquqi bazasını təşkil edir.

Qeyd etmək lazımdır ki, sovet dövrünün deklarativ xarakterli konstitusiya müddəalarından fərqli olaraq Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının normaları konkret hüquqi məsələlərin real həllinə hesablanmış və bu məqsədlə də onların birbaşa tətbiqi nəzərdə tutulmuşdur.

Konstitusiyanın və onun normalarının birbaşa təsiri hüquqların həyata keçirilmə prosesinin bütün üsullarına, o cümlədən, riayət edilməsinə, icrasına, istifadəsinə və tətbiqinə xasdır. Lakin bu zaman Konstitusiyanın birbaşa təsir forması kimi çıxış edən bilavasitə və dolayı təsirinin fərqləndirilməsi mümkün və zəruridir [8, s. 85].

Azərbaycan Respublikası Konstitusiyasının ali hüquqi və birbaşa təsir qüvvəsinə malik olan dövlət aktı kimi əhəmiyyəti dövlətin hüquq sistemində cinayət mühakimə icraatı sahəsində islahatın aparılması ilə bağlı kəskin şəkildə artır. Belə ki, əvvəlki cinayət-prosessual qanundan əhəmiyyətli dərəcədə, xüsusən də insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı prinsipial məsələlərdə fərqlənən yeni cinayət-prosessual qanununun tətbiqi zamanı ortaya çıxan problemlərin aradan qaldırılması prosesində Azərbaycan Respublikası Konstitusiyasının müddəalarının cinayət-prosessual fəaliyyətə birbaşa tənzimləyici təsiri həlledici əhəmiyyət kəsb edir. Qeyd olunanların mahiyyətinin daha ətrafi dərk edilməsi üçün Azərbaycan Respublikası Konstitusiyasının mövzuya dair bəzi səciyyəvi xüsusiyyətlərini nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

Birincisi, Azərbaycan Respublikası Konstitusiyasının ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olması, eləcə də Azərbaycan Respublikası qanunvericilik sisteminin əsasını təşkil etməsi mübahisəsiz qəbul olunmuş faktdır ki, bu da Konstitusiyanın 147-ci maddəsilə bəyan edilir.

Konstitusiya – konstitusiya hüququnun özülüdür, elə buna görə də yalnız onun bir hissəsidir. Əsas qanunun hər bir norması müxtəlif mənbələrdən gələn digər normalarla üst-üstə düşür. Bu qaçılmazdır, lakin bu zaman konstitusiya müddəalarının sanki konstitusiya hüququ dənizində əriyib öz üstünlüyünü itirmək təhlükəsi yaranır. Bunun baş verməməsi üçün qanunverici konstitusiyanın müəyyən normalarının və ya bütün konstitusiyanın birbaşa və bilavasitə təsir statusunu müəyyən edir ki, bu da maraqlı subyektə ancaq konstitusiya mətninə istinad edərək öz hüquqlarının məhkəmə qaydasında müdafiəsini tələb etmək imkanı verir. Konstitusiyanın belə birbaşa təsiri göstərməsi vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi baxımından çox vacibdir. Hətta konstitusiyanın mətnində bu barədə qeyd olunmayan ölkələrdə belə, birbaşa təsir məhkəmə təcrübəsində çoxdan tanınmışdır [7, s. 85].

İkincisi, Azərbaycan Respublikasının Konstitusiyası bütün mühakimə icraatının təşkili konsepsiyasını və prinsiplərini əks etdirən ən əhəmiyyətli amilləri ehtiva edir. Bunlara, hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabe olması; ədalət mühakiməsinin yalnız məhkəmə tərəfindən həyata keçirilməsi; tərəflərin çəkişməsi və bərabərliyi; təqsirsizlik prezumpsiyası və s. bu kimi prinsiplər daxildir. Qeyd olunan bu Konstitusiya prinsipləri Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində bir daha konkretləşdirilir.

Üçüncüsü, vətəndaşların dövlətin tam gücü ilə zəmanət verilən və təmin edilən əsas hüquq və azadlıqları məhz Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilir. Konstitusiya ilə müəyyən edilmiş azadlıq hüququ (28-ci maddə), şəxsi toxunulmazlıq hüququ (32-ci maddə), mənzil toxunulmazlığı hüququ (33-cü maddə), hüquq və azadlıqların inzibati və məhkəmə təminatı (60-cı maddə), hüquqi yardım almaq hüququ (maddə 61), təqsirsizlik prezumpsiyası (63-cü maddə), qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi (66-cı maddə) və s. hüquqlar cinayət mühakimə icraatına tətbiqi baxımından xüsusilə böyük əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, istənilən hüquq normasının səmərəli işləməsi və onun həyata keçirilməsinin maneəsiz təmin edilməsi üçün ən azı etibarlı təminat və yaxşı qurulmuş işlək mexanizm tələb olunur [9, s. 44].

B.S. Ebzeyevin fikrincə, konstitusiya təminatları dedikdə, demokratik hüquq və azadlıqlardan cəmiyyətin bütün vətəndaşlarının istifadə etməsi üçün faktiki və hüquqi imkanların təmin edilməsinin dövlət tərəfindən yaradılan vasitələri başa düşülür ki, onların da sisteminə maddi, siyasi və hüquqi zəmanət şərtləri daxildir [10, s. 96-97].

Məlumdur ki, Konstitusiya hüququ elmi əsasən hüquqi təminatları, yəni konstitusiyadan, qanunlardan və digər normativ mənbələrdən irəli gələn təminatları öyrənir. Mahiyyət etibarilə təminatlar icra edilməli olan vəzifələr, Konstitusiya hüquq və azadlıqlarına münasibətdə isə dövlətin öz üzərinə götürdüyü təminatdır.

M.B. Baqlayın qeyd etdiyi kimi, hüquq və azadlıqların ən yüksək hüquqi qüvvəyə malik olan ümumi təminatı konstitusiyaya dönmədən əməl edilməsinə, ayrılmaz təbii hüquqlara və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına əsaslanan konstitusiya quruluşunun özüdür [7, s. 295].

Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmlş hüquq və azadlıqların ümumi təminatına, ilk növbədə, Konstitusiyanın tələblərinə dönmədən əməl edilməsi yolu ilə nail olunur. Digər tərəfdən, həmin təminatın ayrılmaz təbii hüquqlara əsaslarınması xüsusilə əhəmiyyət

kəsb edir və bu Konstitusiyanın 24-cü maddəsinin II hissəsində öz əksini tapır. Belə ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquq və azadlıqlara malik olması məhz həmin Konstitusiya norması ilə bəyan edilir. Hüquq və azadlıqların təmin olunmasının ümumi təminatının beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına əsaslanması isə Azərbaycan Respublikası Konstitusiyasının 148 və 151-ci maddələrinin müddəaları ilə müəyyən olunur. Belə ki, 148-ci maddənin II hissəsilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olduğu bəyan edilir. Beynəlxalq aktların hüquqi qüvvəsini müəyyən edən 151-ci maddədə göstərilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Qeyd etmək lazımdır ki, Konstitusiya təminatları cinayət prosesinin konstitusiya prinsipləri ilə sıx bağlıdır. Məhz prinsiplər cinayət prosesinin mahiyyətini, onun səciyyəvi xüsusiyyətlərini ifadə edir, bütün cinayət-prosessual qanunvericiliyin əsasını təşkil edən ən ümumi xarakterli hüquq normalarının sistemini müəyyən edir. Cinayət-Prosessual qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin və ya şərtlərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər [2, s. 56].

Azərbaycan Respublikasının cinayət prosesi ilə bağlı konstitusiya müddəaları əsasən Azərbaycan Respublikasının Konstitusiyasının insan və vətəndaş hüquq və azadlıqlarına, eləcə də məhkəmə hakimiyyətinin Konstitusiya statusuna həsr olunmuş III və VII fəsillərində yer almışdır. Həmin müddəalar bütövlükdə cinayət prosesinin əsasını təşkil edən ən fundamental prinsipləri ehtiva edir.

Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqlari və azadliqlari" adlanan III fəslinnin normaları ilə müəyyən edilmiş, cinayət mühakimə icraatı üçün xüsusi əhəmiyyət kəsb edən prinsiplərdən bir qismi, məsələn,bərabərlik hüququ, azadlıq hüququ, təqsirsızlik prezumpsiyası və s. Azərbaycan SSR-in nə 1978-ci il, nə də əvvəlki Konstitusiyalarında nəzərdə tutulmurdu. Buna uyğun olaraq, nə Azərbaycan SSR-in 1 mart 1961-ci ilədək qüvvədə olmuş 1923-cü il Cinayət-Prosessual Məcəlləsində, nə də 1 sentyabr 2000-ci ilədək qüvvədə olmuş 1961-ci il Cinayət-Prosessual Məcəlləsində həmin prinsiplər nəzərdə tutulmurdu. Hüquq və azadlıqların müdafiəsinin Konstitusiya təminatları ancaq Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsində öz əksini tapmışdır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının bərabərlik hüququnu təsbit edən 25-ci maddəsini, azadlıq hüququna dair 28-ci maddəsini, təqsirsizlik prezumpsiyası prinsipini müəyyən edən 63-cü maddəsini və bir sıra digər maddələrini buna misal göstərmək olar. Odur ki, Azərbaycan Respublikasının Konstitusiyasını cinayət prosesinin mənbəyi kimi nəzərdən keçirərkən, onun prosessual prinsiplərin mənbəyi kimi rolunu da nəzərdən qaçırmaq olmaz. Belə ki, cinayət mühakimə icraatının Azərbaycan Respublikası Konstitusiyasına əsaslanan prinsipləri Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin II fəslinin (cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri) 10 – 36-cı maddələrində nəzərdə tutulur.

Azərbaycan Respublikasinin Konstitusiyası Azərbaycan Respublikasinin cinayət-prosessual qanununun ən yüksək hüquqi qüvvəyə malik olan mənbəyidir. O, cinayət-prosessual qanunun prinsipləri və ya əsas müddəaları olan bir sıra normaları ehtiva edir. Məsələn, belə normalara aşağıdakılar aiddir:

– hamının qanun və məhkəmə qarşısında bərabərliyi (25-ci maddənin I hissəsi);

– hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ (26-cı maddənin I hissəsi);

– azadlıq hüququnun yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırılması (28-ci maddənin II hissəsi);

– hər kəsin şəxsi toxunulmazlıq hüququna malik olması. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminatının verilməsi. Həmin hüququn ancaq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını alınması və ya cinayət işinin istintaqı zamanı həqiqətin üzə çıxarılması üçün məhdudlaşdırılmasının mümkünlüyü (32-ci maddənin I və IV hissələri);

– hər kəsin mənzil toxunulmazlığı hüququnun olması. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə mənzilə daxil olmanın yolverilməzliyi (33-cü maddə);

– hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ, şəxsiyyətin ləyaqətinin dövlət tərəfindən qorunması, işgəncə və əzabın, eləcə də insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qalmanın yolverilməzliyi (46-cı maddə);

– hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilməsi, işə qərəzsiz yanaşılması və həmin işə məhkəmə prosesində ağlabatan müddətdə baxılması və məhkəmə prosesində dinlənilmək hüququ (60-cı maddənin I-III hissələri);

– hər kəsin dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən məhkəməyə şikayət etmək hüququ (60-cı maddənin IV hissəsi);

– şübhəli bilinən və təqsirləndirilən şəxslərin ixtisaslı hüquqi yardım almaq hüququ (61-ci maddənin I hissəsi);

– hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ (61-ci maddənin III hissəsi);

– təqsirsizlik prezumpsiyası (63-cü maddənin I hissəsi);

– şəxsin təqsirli olmasına əsaslı şübhələr olduğu halda onun təqsirli bilinməsinin yolverilməzliyi (63-cü maddənin II hissəsi);

– təqsirsizliyini sübut etmək vəzifəsinin təqsirləndirilən şəxsin üzərinə qoyulmasının yolverilməzliyi (63-cü maddənin III hissəsi);

– ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadənin yolverilməzliyi (63-cü maddənin IV hissəsi);

– eyni cinayətə görə təkrar məhkumetmənin yolverilməzliyi (64-cü maddə);

– məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və ya cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ (65-ci maddə);

– özünə, arvadına (ərinə) və yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi (66-cı maddə);

– səlahiyyətli dövlət orqanları tərəfindən tutulan, həbsə alınan, cinayət törətməkdə təqsirləndirilən hər bir şəxsə hüquqlarının dərhal bildirilməsi və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəblərinin izah edilməsi (67-ci maddənin I hissəsi);

– cinayət törətməkdə təqsirləndirilən hər bir şəxsin məhkum edilməzdən əvvəl dinlənilməsi (67-ci maddənin II hissəsi);

– cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərərçəkmiş şəxsin hüquqlarının qanunla qorunması. Zərərçəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququnun olması (68-ci maddənin II hissəsi);

– hər kəsin dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququnun olması (68-ci maddənin III hissəsi).

Azərbaycan Respublikası Konstitusiyasının VII fəsli məhkəmə hakimiyyətinə, onun həyata keçirilməsinə, hakimliyə namizədlərə aid tələblərə, hakimlərin müstəqilliyinə və toxunulmazlığına, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsip və şərtlərinə, məhkəmə icraatının tərəflərin hüquq bərabərliyi, çəkişmə prinsipi, təqsirsizlik prezumpsiyası, hər kəsin müdafiə hüququnun təmin edilməsi əsasında həyata keçirilməsinə, məhkəmə qərarları və onların icrasına, yuxarı məhkəmə instansiyalarının səlahiyyətlərinə və s. həsr olunur (125 – 132-ci maddələr).

Ən yüksək hüquqi qüvvəyə malik olmasına baxmayaraq, Azərbaycan Respublikasının Konstitusiyası cinayət prosesinin gedişinin tam və hərtərəfli tənzimlənməsi üçün nəzərdə tutulmamışdır. Bu xüsusi olaraq qəbul edilmiş qanunvericilik aktının, yəni Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin vəzifəsidir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi dövlətin qanunvericilik orqanı tərəfindən qəbul edilən, cinayət mühakimə icraatı sahəsində ictimai münasibətləri tənzimləyən ən yüksək hüquqi qüvvəyə malik normativ aktdır. Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının yuxarıda göstərilən normaları sahəvi qanunvericilik akti olan Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində cinayət mühakimə icraatının (cinayət prosesinin) prinsipləri olaraq bir daha konkretləşdirilir.

Cinayət mühakimə icraatının (cinayət prosesinin) prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasında və onun əsasında Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində təsbit edilmiş, bütün cinayət prosesinin quruluşunu, onun mahiyyətini və xarakterini müəyyən edən fundamental hüquqi ideyalardır. Onlar baza rolunu oynamaqla bütün cinayət prosesinin əsasını təşkil edirlər.

Cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsinin ən rasional və ədalətli formalarına dair cəmiyyətdə hökm sürən ideyalara uyğun olaraq formalaşdırılmış konstitusiya prinsipləri qarşılıqlı bağlılıq şəraitində hər bir elementi cinayət prosesinin ayrıca tərəfini səciyyələndirməklə vahid bir sistemi – cinayət prosesinin konstitusiya prinsipləri sistemini təşkil edir. Bu sistemin bütün elementlərinin vəhdətinin nəzərə alınması və onların həyata keçirilməsi bütövlükdə Azərbaycan Respublikası cinayət prosesinin mahiyyətinin dərk edilməsinə şərait yaradır. Cinayət prosesinin Konstitusiya prinsiplərinin həyata keçirilməsi o deməkdir ki, dövlət və hüquq, hər şeydən əvvəl, insan üçün mövcud olmaqla həqiqətən də cəmiyyət üzvlərinin ehtiyaclarını əks etdirir, onları müdafiə edir və qoruyur.

Azərbaycan Respublikasının Konstitusiyasının yuxarıda göstərilən prinsip və müddəaları Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin "Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri" adlanan II fəslinin 8-ci (cinayət mühakimə icraatının vəzifələri), 9-cu (cinayət mühakimə icraatının əsas prinsipləri və şərtlərinin təyinatı), 10-cu (qanunçuluq), 11-ci (hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi), 12-ci (Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması), 13-cü

(şəxsin şərəf və ləyaqətinə hörmət edilməsi), 14-cü (azadlıq hüququnun təmin edilməsi), 15-ci (şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi), 16-cı (şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi), 17-ci (mənzil toxunulmazlığı hüququnun təmin edilməsi), 18-ci (mülkiyyət hüququnun təmin edilməsi), 19-cu (hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi), 20-ci (özünü və qohumlarını ifşa etməkdə sərbəstlik), 21-ci (təqsirsizlik prezumpsiyası), 22-ci (məhkəmə baxışını tələb etmək hüququnun təmin olunması), 23-cü (cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi), 25-ci (hakimlərin müstəqilliyi), 26-cı (cinayət mühakimə icraatının aparıldığı dil), 27-ci (cinayət mühakimə icraatının aşkarlığı), 28-ci (cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi), 29-cu (məhkəmə aidiyyətinə əməl olunması), 30-cu (hakimin cinayət mühakimə icraatında iştirakının məhdudlaşdırılması), 31-ci (cinayət mühakimə icraatında qeyri-prosessual münasibətlərin yolverilməzliyi), 32-ci (cinayət prosesində tərəflərin çəkişməsi), 33-cü (cinayət mühakimə icraatında sübutların qiymətləndirilməsi), 34-cü (eyni əmələ görə təkrar məhkum etmənin yolverilməzliyi), 35-ci (məhkəməyə təkrar müraciət etmək hüququnun təmin olunması) və digər maddələrində yer almışdır.

Konstitusiya normalarının təsir mexanizminin təhlilinə keçərkən etiraf etməliyik ki, cinayət işi üzrə icraat zamanı ortaya çıxan prosessual münasibətləri tənzimləmək üçün Konstitusiyanın tətbiqi bir sıra çətinliklərlə üzləşir. Zənnimizcə bu təsadüfi deyil. Belə ki, Azərbaycan Respublikası Konstitusiyası qəbul olunduqdan sonra ötən müddət ərzində Konstitusiyanın tətbiqi proseduru barədə hələ də dəqiq bir fikir formalaşmamışdır.

Konstitusiya normalarının həyata keçirilməsi mexanizmi haqqında daha aydın təsəvvür yaratmaq üçün bəzi müəlliflər Azərbaycan Respublikası Konstitusiyasının fəaliyyətinin statik və dinamik aspektlərinə diqqət yetirməyi təklif edirlər. Konstitusiyada müvafiq prosesləri vurğulamaq üçün “qüvvəyə minmə”, “təsir”, “birbaşa təsir”, “birbaşa təsir”, “həyata keçirmə”, “tətbiq etmə” və s. bu kimi müxtəlif terminlərdən istifadə edilir. Bu problem ancaq terminoloji fərqlərlə məhdudlaşmır, təkcə anlayışlar deyil, onların ifadə etdiyi hüquqi hadisələr də fərqlidir [9, s. 46-47].

Müəllifin gəldiyi bu nəticənin istisnasız qəbul olunması belə deməyə əsas verir ki, Azərbaycan Respublikası Konstitusiyasının təsirinin statik tərəfi “qüvvəyə minmə”, “qüvvəyə mindirmə” terminləri ilə ifadə olunur. Ən ümumi mənada bu o deməkdir ki, Konstitusiya ilə modelləşdirilmiş hakimiyyətin təşkili, şəxsiyyət azadlığı (və s.) sisteminə uyğun gələn, hamı üçün məcburi davranış standartlarının mövcudluğundan söhbət gedir.

Konstitusiyanın təsirinin dinamik tərəfinə gəldikdə isə, B. Ebzeyev və V. Radçenkonun göstərdiyi kimi, bu “birbaşa təsir” kimi ifadə olunur və bununla yanaşı, ən yüksək hüquqi qüvvəyə malik olma və bütün hüquq tətbiqedicilər tərəfindən onun tətbiqinin məcburiliyi ilə bir sırada qeyd olunur [11, s. 7-9]. Burada qeyd etmək yerinə düşər ki, yalnız müəyyən hüquqi müddəaları bəyan etməklə birbaşa təsir qüvvəli normalarının vəzifəsi bitmir. Onlar heç olmasa ümumi qaydada həmin normaların həyata keçirilmə mexanizmini müəyyən etməlidirlər.

“Konstitusiya qanunvericiliyin ictimai münasibətlərə birbaşa tənzimləyici təsir göstərən, dövləti və onun orqanlarını “bir-birinə bağlayan”, insan və vətəndaş hüquq və azadlıqlarını subyektiv hüquqlar kimi təsbit edən, dövlətin üzərinə dəqiq müəyyən edilmiş öhdəliklər qoyan və məhkəmədə müdafiə edilməli olan bir hissəsidir. Konstitusiya normalarının birbaşa təsir göstərməsinin mənası məhz bundan ibarətdir [9, s. 47].

Müəllifin gəldiyi bu nəticə ilə razılaşaraq qeyd etməliyik ki, həqiqətən də Azərbaycan Respublikası Konstitusiyasının birbaşa təsiri dedikdə, ilk növbədə, onun ictimai münasibətlərə

tənzimləyici təsir göstərməsi başa düşülür. Lakin Azərbaycan Respublikası Konstitusiyasının təsiri tənzimləmə funksiyası ilə məhdudlaşmır. Mahiyyətcə odaha geniş anlayış olmaqla sosial münasibətlərə birbaşa təsirin digər formalarını əhatə edir. Lakin məhz dinamikada nəzərədən keçirilən Konstitusiya tənzimləməsi Konstitusiyasının birbaşa təsirnin mahiyyətini təşkil edir. Deməli, istənilən Konstitusiya norması Konstitusiya sistemində tutduğu yerdən, yerinə yetirdiyi funksiyalardan və qarşıya qoyulan məqsədlərdən asılı olmayaraq işlək hüquq normasıdır.

Zənnimizcə, Azərbaycan Respublikası Konstitusiyasının normaları vətəndaşların, vəzifəli şəxslərin, dövlət və ictimai orqanların, xüsusi təsisat kimi dövlətin konstitusiya müddəalarına zidd olmayan qanuni davranışına bütün hallarda birbaşa təsir göstərir. Müvafiq ictimai münasibətlər konstitusiya vasitələri ilə dəqiq tənzimləndikdə və konkret həyati vəziyyəti həll etmək üçün kifayət etdikdə konstitusiya normalarının bilavasitə birbaşa təsirindən danışmaq olar. Konstitusiya (eləcə də istənilən digər hüquqi) normaların birbaşa həyata keçirilməsinin formaları hüquq subyektləri tərəfindən onlarda olan qaydalara riayət edilməsi, icrası və istifadəsindən ibarətdir. Konstitusiya normalarının bilavasitə hüquqi qüvvəsinin xüsusiyyəti yalnız onlara xas olan konkret həyata keçirilmə formasının, yəni "xüsusi səlahiyyətli dövlət orqanları tərəfindən qanunların və digər normativ aktların Azərbaycan Respublikası Konstitusiyasının uyğunluğunu təmin etmək"dən ibarət olmasıdır. Belə fəaliyyətə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qanunların və digər normativ hüquqi aktların Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması üzrə fəaliyyətini misal göstərmək olar.

Bununla belə, konstitusiya hüquq münasibətlərinin tənzimlənməsi üçün daha böyük dərəcədə rəsmi müəyyənlik zəruri olduqda, bu, müxtəlif hüquq sahələrinin normaları ilə təmin edilir. Sonuncu halda, konstitusiya normaları sahəvi qanunvericiliklə müəyyən edilmiş qaydada dolayı təsir göstərir, lakin bu, onların birbaşa təsirini aradan qaldırmır.

Azərbaycan Respublikası Konstitusiyasının təsirinin dinamik aspektinin bu kimi ikili başa düşülməsi bəyan edilmiş hüquq və azadlıqların real təmin edilməsi üçün onun normalarından istifadə etməyə imkan verir.

Azərbaycan Respublikası Konstitusiyasının normalarının cinayət prosesində birbaşa tətbiqi yolunda dayanan başqa bir çətinlik konstitusiya normalarının öz xüsusiyyətlərindədir. Qanunvericilik texnikası Konstitusiyanın müddəalarının tərtibatında yığcamlıq və aydınlıq olmasını tələb edir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş istənilən ictimai münasibətlərin ətraflı tənzimlənməsi üçün konstitusiya normaları əsasında bütün zəruri qaydaları dəqiq müəyyən edən qanunlar və ya digər normativ aktlar qəbul edilir. Lakin bütün bunlara baxmayaraq, konstitusiya normasının birbaşa tətbiqinə zərurət olduğu hallarda nə etmək lazımdır, vəziyyətdən necə çıxmaq olar kimi suallara hələ də cavab tapmaq çətindir.

Qeyd olunduğu kimi, cinayət-prosessual hüquq münasibətləri ilə bağlı ortaya çıxan çətinliklərin aradan qaldırılması üçün problemli halların yaranmasına səbəb olan qanunvericilik normalarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həyata keçirilir və müəyyən uyğunsuzluq aşkar edildiyi onun aradan qaldırılması təklif olunur, tövsiyə irəli sürülür. Təəssüflə qeyd etməliyik ki, burada müəyyən problemlər mövcüddur. Məsələn, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 19 mart 2002-ci il tarixli açıq məhkəmə iclasında xüsusi konstitusiya icraatı üzrə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 87.6.14, 89.4.12 və 422.3-cü maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Ali Məhkəməsinin 2002-ci il 6 fevral tarixli 8-1/2002 saylı sorğusu ilə bağlı konstitusiya işinə baxaraq Azərbaycan Respublikası

Konstitusiyasının 25, 68 və 127-ci maddələrinin tələblərindən irəli gələn zərərçəkmiş şəxsin və mülki iddiaçının əlavə kassasiya qaydasında şikayət vermək və belə icraatda iştirak etmək hüququnun Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 87.6.14, 89.4.12 və 422-ci maddələri ilə məhdudlaşdırıldığını müəyyən etmiş və qeyd olunan halların aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə müvafiq dəyişiklik edilməsini Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etmişdir. Azərbaycan Respublikasının 10 iyun 2011-ci il tarixli 156-IVQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 87.6.14, 89.4.12 və 422-ci maddələrinə müvafiq dəyişikliklər edilmişdir [4, s. 191-197]. Digər bir analoji misal: Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 19 aprel 2002-ci il tarixli açıq məhkəmə iclasında xüsusi konstitusiya icraatı üzrə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 420.3-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikasının Ali Məhkəmənin 2002-ci il 13 mart tarixli 8-2/2002 saylı sorğusu ilə bağlı konstitusiya işinə baxaraq Azərbaycan Respublikası Konstitusiyasının 12, 60 və 68-ci maddələrinin tələblərindən irəli gələn məhkum edilmiş şəxsin vəziyyətinin pisləşdirilməsinə dair zərər çəkmişin yuxarı məhkəmə instansiyalarına şikayət vermək hüququnun Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383.1.5, 409.4 və 420.3-cü maddələri ilə məhdudlaşdırıldığını müəyyən etmiş və qeyd olunan halların aradan qaldırılması məqsədilə həmin Qərarın və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 87.6.14, 89.4.12 və 422.3-cü maddələrinə dair" Konstitusiya Məhkəməsinin 2002-ci il 19 mart tarixli Qərarının müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə müvafiq dəyişiklik edilməsini Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etmişdir. Azərbaycan Respublikasının 11 dekabr 2012-ci il tarixli 492-IVQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383.1.5, 409.4 və 420.3-cü maddələrinə müvafiq dəyişikliklər edilmişdir [4, s. 198-204].

Göründüyü kimi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 19 mart 2002-ci il tarixli və 19 aprel 2002-ci il tarixli qərarları ilə irəli sürülmüş tövsiyələr Milli Məclis tərəfindən birinci halda 9 ildən artıq, ikinci halda isə ancaq 10 ildən artıq müddət keçdikdən sonra təmin edilmişdir. Əlbəttə ki, bunun nə demək olduğunu şərh etməyə zərurət yoxdur.

Beləliklə, yuxarıda göstərilən bütün halları yekunlaşdıraraq, aşağıdakı nəticələrə gəlirik:

1. Azərbaycan Respublikasının Konstitusiyası hüquqi qüvvəsinə görə ən yüksək qanunvericilik aktı olmaqla ölkənin qanunvericilik və hüquq sistemlərinin ən mühüm elementini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyası ölkənin ictimai və dövlət quruluşunun əsas prinsiplərini müəyyən edir. Konstitusiyanın hüquq mənbələri sistemində aparıcı roluna gəldikdə, bu, istisnasız olaraq hüququn bütün sahələrinə şamil edilir.

2. Azərbaycan Respublikası cinayət-prosessual hüququnun normativ bazası olan Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının əsas prinsip və təminatlarını ehtiva edərək ölkənin bütün ərazisində həmin sahəyə dair ictimai münasibətləri həm birbaşa, həm də ayrı-ayrı Konstitusiya müddəalarını cinayət-prosessual qanunda konkretləşdirilməklə, yəni dolayısı ilə tənzimləyir.

3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları hüquqtətbiqetmə orqanlarını və vəzifəli şəxsləri Konstitusiya normalarının düzgün başa düşülməsinə və tətbiqinə istiqamətləndirir. Odur ki, Konstitusiya Məhkəməsinin qərarları bütün dövlət orqanları, o cümlədən, Milli Məclis, eləcə də vəzifəli şəxsləri tərəfindən vaxtında və dəqiq icra olunmalıdır.

Bir sıra cinayət-prosessual normalar birbaşa olaraq Azərbaycan Respublikası Konstitusiyasının "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III fəslində təsbit

edilmişdir. Məsələn, həmin normalarla azadlığın qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırılması (28-ci maddə), mənzildə yaşayanların iradəsinə zidd olaraq mənzilə daxil olmanın yolverilməzliyi (33-cü maddə), ixtisaslı hüquqi yardım almaq hüququ (61-ci maddə), təqsirsizlik prezumpsiyası (63-cü maddə) və s. Bu normaların aşkar cinayət-prosessual xarakter daşıması mübahisısizdır.

Azərbaycan Respublikasının Konstitusiyada təqsirsizlik prezumpsiyasından irəli gələn ən mühüm qaydalar ifadə olunmuş, eyni cinayətə görə təkrar məhkumedilmənin yolverilməzliyi prinsipi bəyan edilmiş (64-ci maddə) və ən əsası, ilk dəfə olaraq dərin əxlaq normaları qanunvericiliklə təsbit edilmişdir. Məsələn:

– şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz (46-cı maddənin II hissəsi);

– heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz (46-cı maddənin III hissəsi);

– ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz (63-cü maddənin IV hissəsi);

– heç kəs özünün, həyat yoldaşının və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz (maddə 66).

Cinayət prosesinin bu Konstitusiya prinsipləri cinayət-prosessual sübutetmə proseduru və elan olunmuş ittihamdan müdafiə üzrə cinayət-prosessual normaların bütün kompleksinin real həyata keçirilməsində həlledici əhəmiyyət kəsb edirlər. Odur ki, bu Konstitusiya prinsiplərinə vaxtında və dəqiq riayət olunması əsas insan və vətəndaş hüquq və azadlıqlarına Konstitusiya təminatı verir.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Hüquq Yayın Evi, 2018. - 92 s.

2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. - Bakı: Qanun nəşriyyatı, 2022. - 640 s.

3. Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsi. - B.: Azərnəşr, 1988. - 304 s.

4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarları (1999-2002). - Bakı: Hüquq ədəbiyyatı, 2018. - 216 s.

5. Əliyev A.C. Azərbaycan Respublikasının Konstitusiyası ilə bəyan olunmuş yaşamaq hüququna dair normanin bəzi aspektləri // Polis Akademiyasının Xəbərləri. – 2019, - № 3 (23), – s. 83-88.

6. Алиев А.Д. Право на жизнь: сравнительный анализ соответствующих норм Конституций Азербайджанской Республики и Российской Федерации // Социально-политические науки (РИНЦ).– 2020. - № 1. - С. 28-32.

Баглай М.В. Конституционное право Российской Федерации: учеб. для вузов / М. В. Баглай. - 6-е изд., изм. и доп. – М.: Норма, 2007. - 784 с.

8. Научно-практический комментарий к Конституции Российской Федерации /Коллектив авторов / Под ред. В.В. Лазарева. – М.: Издательство Спарк, 1997. – 599 с.

9. Орлов А.В. Конституционные нормы, обеспечивающие обвиняемому право на защиту в российском уголовном процессе. Дис... канд. юрид. наук. Саратов, 2004, 254 с.

10. Эбзеев Б.С. Конституция. Правовое государство. Конституционный суд. Учебное пособие для вузов. – М.: Закон и право, ЮНИТИ, 1996. – 349 с.

11.Эбзеев Б., Радченко В. Прямое действие Конституции РФ и конкретизация ее норм // Российская юстиция. - 1994. - № 7. - С. 7-9.

**Джафарли Н.Г., Алиев А.Д.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.66-78**
**УДК: 343.131.5**

## Конституция Азербайджанской Республики как основной источник уголовно-процессуального закона

**Аннотация**: Статья посвящена изучению Конституции Азербайджанской Республики, как основного источника уголовно-процессуального закона Азербайджанской Республики. В результате проведенного исследования, автор приходит к выводу, что Конституция Азербайджанской Республики, по юридической силе, будучи высшим законодательным актом, является важнейшим элементом законодательной и правовой системы страны. Конституция Азербайджанской Республики, являющаяся нормативной базой уголовно-процессуального права Азербайджанской Республики, содержит основные принципы и гарантии прав и свобод человека и гражданина, регулирует общественные отношения в указанной сфере на всей территории страны как непосредственно, так и опосредованно, путем конкретизации положений Конституции в уголовно-процессуальном законодательстве. Постановления Конституционного Суда Азербайджанской Республики ориентируют правоприменительные органы и должностных лиц на правильное понимание и применение конституционных норм. Поэтому решения Конституционного Суда должны своевременно и точно исполняться всеми государственными органами, в том числе Милли Меджлисом, а также должностными лицами.

**Ключевые слова:** права и свободы человека и гражданина; конституционные права и свободы; источники права; источники уголовно-процессуального права; нормативная база уголовно-процессуального права.

### Библиография

1. Конституция Азербайджанской Республики. - Баку: Huquq Yayın Evi, 2018. - 92 с. (на азерб. яз.).

2. Уголовно-процессуальный Кодекс Азербайджанской Республики. – Баку: Ганун, 2022. -640 с. (на азерб. яз.).

♦ **Джафарли Назим Гасан оглы** – доктор юридических наук, профессор, заслуженный учитель, заведующий отделом «Государственное и конституционное право» Института права и прав человека (Азербайджан). E-mail: aydin.ali@mail.ru

**Алиев Айдын Джамиль оглы –** доктор философии права, доцент, старший научный сотрудник Института права и прав человека (Азербайджан). E-mail: aydin.ali@mail.ru

3. Уголовный Кодекс Азербайджанской ССР. - Баку: Азернешр, 1988. – 304 с. (на азерб. яз.).

4. Постановления Конституционного Суда Азербайджанской Республики (1999-2002). - Баку: Юрид. лит-ра, 2018. – 216 с. (на азерб. яз.).

5. Алиев А.Д. Некоторые аспекты нормы о праве на жизнь, провозглашенной Конституцией Азербайджанской Республики // *Polis Akademiyasının Xəbərləri – Новости Академии полиции*. – 2019, - № 3 (23). - С. 83-88.

6. Алиев А.Д. Право на жизнь: сравнительный анализ соответствующих норм Конституций Азербайджанской Республики и Российской Федерации // Социально-политические науки (РИНЦ).- 2020. - № 1. - С. 28-32.

7. Баглай М.В. Конституционное право Российской Федерации: учеб. для вузов / М. В. Баглай. - 6-е изд., изм. и доп. – М.: Норма, 2007. - 784 с.

8. Научно-практический комментарий к Конституции Российской Федерации /Коллектив авторов / Под ред. В.В. Лазарева. - М.: Издательство Спарк, 1997. - 599 с.

9. Орлов А.В. Конституционные нормы, обеспечивающие обвиняемому право на защиту в российском уголовном процессе. Дис... канд. юрид. наук. Саратов, 2004, 254 с.

10. Эбзеев Б.С. Конституция. Правовое государство. Конституционный суд. Учебное пособие для вузов. - М.: Закон и право, ЮНИТИ, 1996. - 349 с.

11.Эбзеев Б., Радченко В. Прямое действие Конституции РФ и конкретизация ее норм // Российская юстиция. - 1994. - № 7. - С. 7-9.